# Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır – 28

## YAP Nərimanov rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaranmasının 28-ci ildönümü münasibətilə tədbir keçirib





### "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti bundan sonra da mühüm tarixi nailiyyətlərə imza atacaq"

Yeni Azərbaycan Partiyası (YAP) Nərimanov rayon təşkilatı YAP-ın yaranmasının 28-ci ildönümü münasibətilə "Böyük Qələbəyə gedən yolda Yeni Azərbaycan Partiyasının rolu və əhəmiyyəti" mövzusunda ərazi ilk partiya təşkilatlarının sədrlərinin iştirakı ilə videokonfrans formatında tədbir keçirib.

Tədbiri giriş sözü ilə açan YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev öncə ərazi bütövlüyümüzün bərpası uğrunda gedən müharibədə möhtəşəm qələbə qazanılması və Yeni Azərbaycan Partiyasının yaranmasının 28-ci ildönümünün qeyd olunması münasibətilə tədbir iştirakçılarını təbrik edib. O, Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, həmin dövrdəki ziddiyyətli siyasi proseslərdən bəhs edib.

T.Tağıyev deyib ki, belə bir şəraitdə xalq ağır vəziyyətdən çıxış yolu kimi Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasını görürdü.

Rayon təşkilatının sədri, həmçinin rəşadətli ordumuzun sentyabrın 27-dən etibarən başlayan əks-hücum əməliyyatları nəticəsində Azərbaycanın öz hərbi qüdrətini göstərdiyini diqqətə çatdırıb. T.Tağıyev söyləyib ki, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanının rəhbərliyi ilə cəmi 44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan ordusu darmadağın edildi. Bununla da böyük qələbəyə imza atıldı.

Sonra tədbir iştirakçılarından YAP Nərimanov rayon təşkilatı Qadınlar Şurasının sədri Məhəbbət İbrahimova, Avrasiya Universitetinin prorektoru Şəfaət Avılbəyli, Bakı Humanitar Kollecinin direktor müavini Rasim Rzaxanov, ərazi ilk partiya təşkilatlarının sədrləri - Maarif Əhmədov, Ağaəli Hüseynov, Azər Əbilov, Əli Məmmədov, Anar Hacıyev, YAP Nərimanov rayon təşkilatı Gənclər Birliyinin sədri Nərminə Yunusova və sədr müavinləri Vüsal Əliyev, Tamerlan Əkbərov çıxış edərək, Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli inkişaf yolundan bəhs ediblər.

Natiqlər, həmçinin Yeni Azərbaycan Partiyasının Sədri, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun qəhrəmanlığı sayəsində qazanılmış böyük qələbəyə gedən yoldan danışıblar. Qeyd olunub ki, xalqın alternativsiz Lideri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti bundan sonra da yüksək nailiyyətlərə imza atacaq.

## YAP Səbail rayon təşkilatında partiyanın yaradılmasının 28-ci ildönümü qeyd olunub





Yeni Azərbaycan Partiyasının (YAP) Səbail rayon təşkilatında müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində qazandığı şanlı qələbə və YAP-ın yaradılmasının 28-ci ildönümü münasibətilə videkonfrans keçirilib.

YAP Səbail rayon təşkilatından bildirilib ki, əvvəlcə Prezident İlham Əliyevin Ağdam rayonunun işğaldan azad olunması münasibətilə xalqımıza müraciəti dinlənilib.

Sonra çıxış edən YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev Ali Baş Komandan başda olmaqla bütün xalqımızı müstəqil Azərbaycanın hərb tarixinə qızıl hərflərlə əbədi həkk olunan Vətən müharibəsində qazanılan şanlı qələbə münasibətilə təbrik edib. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun zəfər tarixi yazdığını vurğulayan Ş.Hacıyev rəşadətli ordumuzun 44 günlük qələbə salnaməsinin dövlətçilik tariximizin son yüz ildə ən qürurlu səhifəsi olduğunu, xüsusi qeyd edib.

Ş.Hacıyev, həmçinin Yeni Azərbaycan Partiyasının yaradılmasının 28-ci ildönümü münasibətilə təbriklərini çatdırıb və YAP Səbail rayon təşkilatının fəaliyyəti, bu il pandemiya ilə mübarizə və müharibə dövründə görülən işlər haqqında konfrans iştirakçılarına məlumat verib. Qeyd olunub ki, xüsusi karantin rejimi dövründə Səbail rayonunda 200-dən çox aztəminatlı ailəyə xidmət göstərilib, maarifləndirmə işləri həyata keçirilib. Müharibə dövründə döyüşlərdə yaralanmış və hazırda müalicə olunan hərbi qulluqçular təşkilat tərəfindən, xüsusi diqqətdə saxlanılıb, partiya üzvləri və könüllülər cəbhə bölgələrini ziyarət edib və Ali Baş Komandanımızla, ordumuzla həmrəylik nümayiş etdiriblər.

Tədbirdə çıxış edən digər natiqlər də müzakirə olunan mövzularla bağlı fikirlərini bildiriblər.

**MÜŞFİQƏ**

## Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır



Yeni Azərbaycan Partiyasının yaradılmasının 28-ci ildönümü münasibətilə YAP Tərtər rayon təşkilatında tədbir keçirilib. Tədbir iştirakçıları öncə Yeni Azərbaycan Partiyasının yaradıcısı, müasir Azərbaycan dövlətinin banisi, Ümummilli Lider Heydər Əliyevin və Vətən müharibəsində şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov qeyd edib ki, partiyanın yaranması, formalaşması və inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndərin ideyalarına sadiqlik nümayiş etdirməklə partiyamız öz fəaliyyəti ilə Azərbaycan xalqının böyük rəğbətini qazanaraq, əsl xalq partiyasına çevrilib: *"YAP Tərtər rayon təşkilatı da partiyamızın müəyyənləşdirdiyi strateji xəttin ardıcıllıqla həyata keçirilməsi istiqamətində fəaliyyət göstərir. Hazırda rayon təşkilatının 83 ərazi ilk partiya təşkilatı 6654 nəfər YAP üzvünü özündə birləşdirir".*

O da bildirilib ki, sıralarında 760 mindən artıq üzvü birləşdirən YAP hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Sədrliyi ilə öz fəaliyyətini uğurla davam etdirir.

Tədbirdə həmçinin YAP rayon təşkilatının Şura üzvləri Məhəbbət Məmmədov, Faiq Məmmədov, Kərrar Bayramov, ərazi ilk partiya təşkilat sədrlərindən Sahib Həsənov, Çingiz İsayev və Firdovsi Hüseynov çıxış edərək, vurğulayıblar ki, Yeni Azərbaycan Partiyası yarandığı ilk gündən başlayaraq bütün dövrlərdə Azərbaycanda dövlətçiliyinin möhkəmlənməsinə xidmət edib.

## YAP-ın ötən 28 ildə qazandığı uğurların təməlində sözlə əməl birliyi dayanır



Yeni Azərbaycan Partiyası (YAP) Ağdam rayon təşkilatında partiyanın yaranmasının 28-ci ildönümü münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə güllər düzərək, əziz xatirəsini ehtiramla yad ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Ağdam rayon təşkilatının sədri Allahverən Əliyev öncə 20 noyabr tarixinin Ağdamın, o cümlədən ölkəmizin tarixinə qızıl hərflərlə yazıldığını bildirib: **"Sentyabrın 27-də işğalçı Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun apardığı 44 günlük Vətən müharibəsi qələbəmizlə başa çatdı və imzalanan üçtərəfli bəyanata uyğun olaraq işğalçı ölkə əsgərləri noyabrın 20-də tamamilə Ağdamdan çəkildilər. Mən bu qələbə münasibətilə başda cənab Prezident İlham Əliyev olmaqla Azərbaycan xalqını, o cümlədən ağdamlıları təbrik edirəm".**

Çıxışına davam edən rayon təşkilatının sədri daha sonra partiyanın fəaliyyəti barədə ətraflı məlumat verib. Allahverən Əliyev bildirib ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin qurucusu olduğu YAP qısa vaxt ərzində təşkilatlanaraq ölkənin ən güclü siyasi qüvvəsinə çevrilib. Onun sözlərinə görə, partiyanın ötən 28 ildə qazandığı uğurların təməlində sözlə əməl birliyi dayanır: **"Dövlətə, xalqa xidməti fəaliyyətinin əsas prinsipi kimi qəbul edən YAP-ın cəmiyyətdə nüfuzunun artmasında, sıralarının genişlənməsində bu amilin rolu inkaredilməzdir".**

Tədbirdə, həmçinin YAP Ağdam rayon təşkilatının İdarə Heyətinin üzvü Zülfü Qasımov, Arzu Rəhimova, Hüseyn Bayramov, Natiq Cavadov və başqaları çıxış edərək bildiriblər ki, çox zəngin, siyasi mübarizələrlə dolu şanlı tarixi olan YAP 28 illik fəaliyyəti dövründə müstəqil Azərbaycanın inkişafında son dərəcə mühüm rol oynayıb, dövlətçiliyimizin, dövlət müstəqilliyimizin qarantı olub.

Sonda tədbir iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevə təbrik məktubu ünvanlanıb.

## YAP-ın yaranmasının 28-ci ildönümü münasibətilə Yevlaxda onlayn formatda tədbir keçirilib





Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasının 28-ci ildönümü münasibətilə Yevlax şəhər İcra Hakimiyyəti və YAP Yevlax rayon təşkilatının birgə təşkilatçılığı ilə tədbir keçirilib. Tədbirin iştirakçıları öncə partiyanın yaradıcısı, Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstələri qoyublar.

Onlayn formatda keçirilən tədbiri giriş sözü ilə açan YAP Yevlax rayon təşkilatının Aparat rəhbəri Rafiq Əliyev konfrans iştirakçıları adından torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyümüz uğrunda rəşadətlə döyüşüb şəhid olan oğullarımızın ailələrinə dərin hüznlə başsağlığı verib, yaralı döyüşçülərimizə tezliklə sağalmalarını arzulayıb. Rafiq Əliyev, həmçinin işğalçı Ermənistan üzərində şanlı qələbə münasibəti ilə başda Ali Baş Komandanımız, möhtərəm Prezidentimiz cənab İlham Əliyev olmaqla, Milli Ordumuzun bütün şəxsi heyətini və xalqımızı təbrik edib.

Konfransda çıxış edən YAP Yevlax rayon təşkilatının sədri, millət vəkili İlham Məmmədov təməlini Ulu Öndər Heydər Əliyevin qoyduğu və bu gün Sədri möhtərəm Prezidentimiz cənab İlham Əliyev olan Yeni Azərbaycan Partiyasının 28 illik şərəfli tarixindən ətraflı söhbət açıb. Çıxışına davam edən İlham Məmmədov işğalçı Ermənistan üzərində qələbəmizin məhz cənab Ali Baş Komandanın qətiyyəti və ordumuzun rəşadəti sayəsində mümkün olduğunu deyib.

Tədbirdə daha sonra Yevlax şəhər İcra Hakimiyyəti başçısının müavini, YAP Yevlax rayon təşkilatının sədr müavini Elnarə Əzizova, YAP Yevlax rayon təşkilatı Gənclər Birliyinin sədri Maqsud Süleymanlı, Yevlax şəhər Təhsil Şöbəsinin müdiri Namidə Abbasova, YAP Yevlax rayon təşkilatı Qadınlar Şurasının sədri, "Kür" qəzetinin baş redaktoru Əminə Yusifqızı, YAP fəalı Fərid Vaqifli çıxış edərək partiyamızın fəaliyyətindən, həmçinin cənab Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun şanlı qələbələrindən danışaraq, müzəffər əsgərlərimizin xalqımıza 30 ildən sonra qələbə sevinci yaşatmalarının tarixi bir hadisə olduğunu qeyd ediblər.

Tədbir qarşılıqlı müzakirələr formasında davam edib.

## YAP Kürdəmir rayon təşkilatında partiyanın yaradılmasının 28-ci ildönümünə həsr olunmuş videokonfrans keçirilib



Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 28-ci ildönümü münasibətilə YAP Kürdəmir rayon təşkilatında videokonfrans formatında tədbir keçirilib.

Tədbirdə YAP Kürdəmir rayon təşkilatı Gənclər Birliyinin sədri Rauf Abuşov çıxış edərək Yeni Azərbaycan Partiyasının yarandığı tarixi şəraitdən, keçdiyi şərəfli yoldan, partiyanın yaradıcısı Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasından və partiyamızın cəmiyyətdə aparıcı rolundan danışıb. Rauf Abuşov qeyd edib ki, Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyununda - son dərəcə mürəkkəb, ağır dövrdə xalqın təkidli tələbi ilə ölkəyə rəhbərlik məsuliyyətini üzərinə götürməsəydi, bügünkü müstəqil, qüdrətli, sürətlə inkişaf edən, regionun lider dövlətinə çevrilən Azərbaycandan danışmaq mümkün olmazdı. Olduqca çətin bir şəraitdə yaranmış bu partiyanın çox qısa müddətdə əsl siyasi qüvvə kimi formalaşması, minlərlə əqidəli insanın onun sıralarında birləşməsi bu gün bir daha Ulu Öndər Heydər Əliyev fenomeninin, dühasının qüdrətindən xəbər verir. Onun sözlərinə görə, müstəqil Azərbaycan Respublikası, möhkəm özülə söykənən dövlətçiliyimiz ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə uğurlu gələcəyə doğru inamla addımlayır. Bu gün cənab İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası öz inkişafının ən möhtəşəm tarixini yaşayır və partiyamız cəmiyyətin bütün təbəqələrini əhatə etməklə öz sıralarında 760 mindən çox vətəndaşı birləşdirən, siyasi-ideoloji güc mərkəzidir.

Tədbirdə rayon İcra Hakimiyyəti başçısının müavini Vəsilə Əsgərli, təşkilatın Gənclər Birliyinin sədr müavini Mais Bayramov, təşkilatın İdarə Heyətinin üzvü Dürriyə Seyidova çıxış edərək ötən 28 ildə YAP-ın keçdiyi inkişaf yolu barədə fikirlərini bildiriblər.